# XƏLİLOV ELDAR XƏLİL OĞLU



19 avqust 1976-cı ildə Qərbi Azərbaycanın Zəngibasar rayonunun Zəngilər kəndində dünyaya göz açmışdır. 1983-cü ildə burada məktəbə getmişdir. 6-cı sinfə qədər təhsilini doğma kəndlərində almışdır. 1988-ci ildə yüz minlərlə soydaşımız kimi öz torpaqlarından zorla qovulan Eldarın ailəsi Bakı şəhərinə gəlmiş və Bakıxanov qəsəbəsində məskunlaşmışlar. Eldar təhsilini Bakı şəhərinin 96 və 252 saylı orta məktəblərində davam etdirmişdir. Sonra Bakıdakı 10 saylı texniki-peşə məktəbini bitirmişdir. 29 sentyabr 1994-cü ildə Sabunçu rayonu Hərbi Komissarlığı tərəfindən Milli ordu sıralarına çağırılmışdır. Eldar Xəlil oğlu Xəlilov Azərbaycan milli ordusunun əsgəri olur. Eldarı xüsusi təyinatlı kəşfiyyat taboruna göndərirlər. Hərbi hissədə qısamüddətli təlim-məşqləri keçir. 1995-ci ilin mart ayında qeyri-qanuni silahlanmış qiyamçı dəstələr dövlət çevirilişinə cəhd edirlər. 17 mart 1995-ci ildə qarşıdırma zamanı Eldar qarşı tərəfdən atılan güllənin qurbanına çevrilir. Bakıdakı ikinci Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Xəlilov Eldar Xəlil oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Bakıxanov qəsəbəsindəki küçələrdən biri onun adını daşıyır. Vaxtilə oxuduğu 252 saylı orta məktəbdə isə qəhrəmana həsr olunmuş güşə yaradılmışdır. Qəsəbədə büstü qoyulmuşdur.